ŞAHİN HÜSEYNOV
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası
RAUF ƏLİYEV
"Alyans" - Azərbaycan Xüsusi Xidmət Orqanları Veteranlarının İctimai Birliyi

# NARKOTİKLƏRLƏ BAĞLI CİNAYƏTLƏRİN İSTİNTAQINDA ƏMƏLİYYAT-AXTARIŞ TƏDBİRLƏRİNİN NƏTİCƏLƏRİNDƏN İSTİFADƏ OLUNMASININ BƏZİ AKTUAL MƏSƏLƏLƏRİ

**Annotasiya:** *Məqalədə narkotiklərlə bağlı cinayətlər nəzərdən keçirilir. Müəllif bu cinayətlərin istintaqında əməliyyat-axtarış tədbirlərinin nəticələrindən istifadə olunmasının bəzi aktual məsələlərini araşdırmışdır.*

**Açar sözlər:** *əməliyyat-axtarış fəaliyyəti, əməliyyat-axtarış tədbiri, narkotik vasitələr, cinayət, istintaq*

Cinayətkarlığa qarşı mübarizə sahəsində uzun illər toplanmış təcrübənin nəticələri və onlara əsaslanaraq həyata keçirilən fundamental elmi səciyyəli tədqiqatların nəticələri təsdiq edir ki, müasir dövrdə qeyri-aşkar şəraitdə, xüsusilə də mütəşəkkil cinayətkar qruplar tərəfindən törədilən cinayətlərin qarşısının alınması və açılmasında hüquq-mühafizə orqanları tərəfindən əsas etibarı ilə gizli üsullarla həyata keçirilən əməliyyat-axtarış tədbirləri mühüm və müstəsna əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunu qəbul edildikdən sonra, əməliyyat-axtarış tədbirlərinin növləri və onların təşkili və həyata keçirilməsi, nəticələrinin cinayət prosesində istifadə olunmasının qanunvericilik əsasları müəyyənləşdirildi, o cümlədən Cinayət-Prosessual Məcəlləsinə yeni 137-ci maddə (əməliyyat-axtarış fəaliyyətinin gedişində əldə edilmiş materialların sübut kimi istifadə edilməsi) əlavə olundu [1].

Azərbaycan Respublikasının «Əməliyyat-axtarış fəaliyyəti haqqında» 28.X.1999-cu il tarixli (2002-2005-ci illərdə əlavə və dəyişikliklərlə) Qanununun 16-cı maddəsinin I hissəsinə əsasən, bu fəaliyyət nəticəsində əldə edilmiş materiallar bu Qanuna müvafiq əldə edildikdə və yoxlanıldıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər [2]. Lakin, onu da qeyd etmək lazımdır ki, yuxarıda qeyd edilən, habelə «ƏAF haqqında» Qanunun, digər normativ-hüquqi aktların bu istiqamətdə münasibətləri nizamlayan hüquq normaları ümumi səciyyə daşıyır, əməliyyat-axtarış tədbirlərinin nəticələrinin sənədləşdirilməsi və onların cinayət prosesində istifadə edilməsi qaydalarını zəruri həcmdə müəyyən etməyə imkan vermir. Bunun üçün ayrıca normativ-hüquqi aktın işlənib hazırlanmasına ehtiyac var.

Bu məqalənin hazırlanmasında əsas məqsəd əməliyyat-axtarış fəaliyyətində, o cümlədən əməliyyat-axtarış tədbirlərinin keçirilməsi prosesində əməliyyat aparatının əməkdaşları tərəfindən tərtib olunan əməliyyat-xidməti sənədlərin əsaslı təhlilinə müvafiq olaraq onların cinayət prosesində istifadə olunmasının bəzi problemli məsələlərini və onların həlli yollarını açıqlamaqdan ibarətdir. Məşhur rus alimi İ.N.Yakimovun mülahizələrinə görə əməliyyat aparatının işçisi intellektual baxımdan o qədər inkişaf etmiş və savadlı olmalıdır ki, o, təhqiqatı apararkən, qərarları, arayışları, raportları və digər xidməti sənədləri tərtib edərkən fikirlərini kağız üzə-

rində ifadə etməyə çətinlik çəkməməlidir [7, s.56].

Tərtib olunmuş əməliyyat-xidməti sənədlərin cinayət prosesində istifadə edilməsi üçün ən ciddi və sərt məhdudiyyətlərdən biri də dövlət və xidməti sirlərin mühafizəsi məqsədilə məxfilik rejim və konspirasiya qaydalarının təmin olunmasıdır. Əməliyyat-axtarış tədbirlərinin nəticələrinin cinayət prosesində istifadə olunmasının digər əsas və mühüm şərtlərindən biri də ondan ibarətdir ki, onlar o halda istifadə oluna bilər ki, ibtidai istintaq prosesində bu məlumatların alınma mənbələrini müəyyən etmək, onların həqiqiliyini, obyektivliyini, düzgünlüyünü və digər istintaq hərəkətlərini həyata keçirməklə, habelə müvafiq ekspertizalar aparılmaqla yoxlamaq mümkündür.

Qeyd edilənləri, «ƏAF haqqında» Qanunun 14-cü maddəsinin IX, X hissələri, 16-cı maddəsi, Cinayət-Prosessual Məcəllənin 137-ci maddəsinin tələbləri rəhbər tutulmaqla, əməliyyat-axtarış tədbirlərinin keçirilməsi nəticəsində əldə olunan məlumatların, sübut qismində istifadə edilə biləcək əşyaların, sənədlərin rəsmiləşdirilməsi və cinayət prosesində istifadə olunması qaydalarının hüquqi nizamlanmasının təkmilləşdirilməsini vacib sayırıq. Əks halda, əməliyyat-axtarış tədbirlərinin nəticələrinin sənədləşdirilməsi və onların cinayət prosesində sübut qismində istifadə edilməsində çox ciddi problemlər yarana bilər və bu isə öz növbəsində, təcrübədə əməliyyat aparatları ilə istintaq orqanlarının bu məsələ ilə bağlı fəaliyyətində ciddi problemlərin meydana çıxmasına səbəb ola bilər.

Narkotiklərlə bağlı cinayətlərin aşkar olunması, onları törədən şəxslərin ifşa olunmasında yuxarıda qeyd edilən problemlərə daha çox rast gəlmək olar. Məhz ona görə də qısa da olsa, narkotiklərlə bağlı cinayətlərin istintaqında əməliyyat-axtarış tədbirlərinin nəticələrinin cinayətlərin istintaqında istifadə olunması ilə bağlı bəzi məsələlərin araşdırılmasını elmi-nəzəri və təcrübi baxımdan vacib sayırıq.

Narkotik vasitələrlə bağlı cinayətlərin istintaqında müstəntiqə əsasən əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqandan aşağıdakı əməliyyat-xidməti sənədlər daxil olur:

1. cinayətin əlamətlərinin aşkar olunması barədə əməliyyat müvəkkilinin raportu;
2. nəzarət qaydasında mal alınması haqqında qərar;
3. pul vəsaitinin verilməsi, qəbulu və xüsusi maddələrlə işlənməsi (nişan vurulması barədə akt);
4. texniki və digər vasitələrin verilməsi və qəbulu barədə akt;
5. nəzarət qaydasında mal alınması əməliyyat-axtarış tədbirinin nəticəsi barədə akt;
6. narkotik vasitəni satan şəxsin üzərindən xüsusi maddələrlə işlənmiş pul vəsaitinin və şərti alıcıdan narkotik vasitənin götürülməsini özündə əks etdirən sənəd;
7. əməliyyat-axtarış tədbirinin təşkili və keçirilməsində iştirak edən əməliyyat müvəkkilinin raportu.
8. götürülmüş narkotik vasitənin kriminalistik tədqiqatlar xidməti tərəfindən təbqiq olunmasının nəticəsinə dair akt.

Cinayətin əlamətlərinin aşkar olunması barədə əməliyyat müvəkkilinin raportunda cinayəti hazırlayan, törədən və ya törətmiş şəxs barəsində və həmçinin, nəzarət qaydasında mal alınması əməliyyat-axtarış tədbirinin keçirilməsinə icazə alınması haqda məlumatlar əks olunur (Azərbaycan Respublikası «ƏAF haqqında» Qanunu, mad. 11, II hissə, 4-cü bənd).

Nəzarət qaydasında mal alınması haqqında qərar «ƏAF haqqında» Qanunun 11-ci maddəsinin II hissəsinin 4-cü bəndinin, III hissəsinin 3-cü bəndinin, 12-ci maddəsinin tələblərinə uyğun hazırlanır[1]. Bu qərar icraatında əməliyyat-qeydiyyat işi olan əməkdaş tərəfindən tərtib olunur və əməliyyat xidmətinin rəisi ilə razılaşdırıldıqdan sonra, orqanın rəisi tərəfindən təsdiq edilir. Tədbirin ke-

çirilməsi ərzində onun iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər nəzərdə tutulmalıdır.

Nəzarət qaydasında mal alınması əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə planın cinayət işinə əlavə olunmasını tələb etmək olmaz, belə ki, burada dövlət sirri təşkil edən məlumatlar ola bilər. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının «ƏAF haqqında» Qanununun 20-ci maddəsinin 4-cü hissəsində qeyd edilir ki, əməliyyat-axtarış tədbirlərinin təşkili, taktikası, üsul və vəsaitlərinə dair məlumatlar ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun nəzarətinin predmetinə daxil deyil [2].

Əksər hallarda əməliyyat-axtarış tədbirinin təşkili və həyata keçirilməsində iştirak edən əməliyyat müvəkkilinin şahid qismində dindirilməsi kifayət edir.

Pul vəsaitinin verilməsi, qəbulu və xüsusi maddələrlə işlənməsi barədə akt şərti alıcının narkotik vasitənin alqı-satqısı və sonra narkotiki satan şəxsin tutulması zamanı pul vəsaitinin dəyişdirilməsi faktının qarşısının alınması üçün əvvəlcədən xüsusi maddələrlə işlənilmiş, hazırlanmış pul vəsaitinin şərti alıcıya (əməliyyat işçisinə, bu tədbirdə iştirak etməsinə razılıq verən şəxsə və s.) verilməsi zamanı tərtib olunur.

Texniki və digər vasitələrin verilməsi, qəbulu barədə akt. Bu, əsasən səs yazma, video çəkilişin aparılması zamanı tərtib olunur. Texnikanın köməyi ilə biz lazımi sübutları əldə edirik. Texniki vasitələrin tətbiq olunmasından əvvəl şərti alıcının və tədbirdə iştirak edən digər şəxslərin təlimatlandırılması həyata keçirilir. Bəzi hallarda təlimatlandırılmanın nəticəsi ayrıca sənədlə rəsmiləşdirilə bilər.

Nəzarət qaydasında mal alınması əməliyyat-axtarış tədbirinin nəticəsi barədə akt əsasən alıcı pul vəsaitinin satıcıya verməsi və satıcı tərəfindən narkotik vasitənin alıcıya verməsindən sonra tərtib olunur.

Narkotik vasitəni satan şəxsin üzərindən xüsusi maddələrlə işlənmiş pul vəsaitinin və şərti alıcıdan narkotik vasitənin götürülməsini özündə əks etdirən sənədlər. Bu sənədlərdən birində narkotik vasitəni satan şəxsin üzərindən işarələnmiş pul vəsaitinin aşkar olunması və cinayətin izlərinin qeyd olunması kimi hərəkətlər öz əksini tapır (əl-barmaq izləri, kimyəvi maddələrin rəngi, bağlamanın fraqmentləri və s. Burada sənədləşmənin müxtəlif variantlarından istifadə oluna bilər).

İkinci halda əsasən alıcıdan narkotik vasitənin götürülməsi kimi hərəkətlər qeyd olunur. Bir qayda olaraq alıcı əməliyyat işçisinin təklifinə əsasən aldığı narkotik vasitəni könüllü verir. Əksər hallarda onun üstündə digər narkotik vasitə olub-olmamasını müəyyən etmək üçün baxış keçirilir. Götürülmüş narkotik vasitə bükülüb möhürlənir (əvvəlki bənddə olduğu kimi, burada da sənədləşmənin müxtəlif növlərindən istifadə olunur).

Texniki və digər vasitələrin götürülməsi barədə sənəd. Burada eyni ilə sənədlərin müxtəlif növlərindən istifadə oluna bilər. Belə ki, götürülmüş texniki vasitəyə baxılır, informasiya daşıyıcısı (audio-video kasset və s.) bükülür və möhürlənir.

Əməliyyat-axtarış tədbirinin keçirilməsi barədə raportu bu tədbirin təşkili və keçirilməsində iştirak edən əməliyyat müvəkkili tərtib edir.

Qeyd etdiyimiz sənədlərə eyni zamanda aşkar olunmuş maddi sübutlar əlavə olunur (narkotik vasitələr, xüsusi maddələrlə işlənmiş pul vəsaiti, audio-video kassetlər və s.)

Təcrübə materiallarının öyrənilməsi göstərir ki, ən çətin məsələlərdən biri cinayət işinin başlanmasına qədər vətəndaşlardan, onların yaşayış sahələrindən, nəqliyyat vasitələrindən narkotik vasitələrin, xüsusi maddələrlə işlənmiş pul vəsaitinin və digər predmetlərin götürülməsinin hüquqi əsasları və qaydaları sahəsində olan problemlərdir.

Narkotik vasitələrin, xüsusi maddələrlə işlənmiş pul vəsaitinin, predmetlərin və sə-

nədlərin götürülməsi üçün aşağıdakı istintaq və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi tövsiyə olunur:

- hadisə yerinə baxış;
- şəxsi müayinə;
- nəzarət qaydasında mal alınması;
- narkotik vasitələrin və digər predmetlərin könüllü təhvil verilməsi;
- axtarış, götürmə və şəxsi axtarış.

Hadisə yerinə baxış keçirilməsi istintaq hərəkəti Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 217 və 236-cı maddələrinə uyğun olaraq təxirəsalınmaz hallarda cinayət işinin başlanmasına qədər həyata keçirilə bilər. Müstəntiq vətəndaşların hüquqlarını pozmamaq şərti ilə görünən obyektlərin baxışını aparır. Zəruri hallarda müstəntiq baxışın aparıldığı yeri və ayrı-ayrı əşyaları ölçür, yerin və ayrı-ayrı əşyaların plan, sxem və cizgilərini tərtib edir, imkan olduqda isə onların foto, video və kino çəkilişlərini aparır.

Baxış zamanı yalnız açıq yerlərdə olan əşya və predmetlərin götürülməsinə yol verilir. Narkotik vasitəni satan şəxsin cibinə, qapalı yerlərə baxış keçirilməsi axtarış və götürmə kimi istintaq hərəkətləri ilə eyniləşir ki, bu da yolverilməzdir.

Əksər alimlər və praktiki işçilərin ümumi rəylərinə əsasən şəxsi müayinə (Azərbaycan Respublikası CPM, mad. 238) ola bilər ki, cinayət işi başlanana kimi keçirilsin. Şəxsi müayinə aparılması məhkəmə-tibb ekspertizasının keçirilməsi tələb edilmədiyi halda şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və ya şahidin bədənində cinayətin izlərini və ya xüsusi əlamətləri aşkar etmək məqsədilə aparılır.

Nəzarət qaydasında mal alınması əməliyyat-axtarış tədbirinin tətbiq olunması və nəticəsinə biz əvvəldə qısa da olsa toxunduq.

Narkotiklərin dövriyyəsi ilə bağlı cinayətlərin aşkar olunmasında da müqayisəli tədqiq üçün nümunələrin götürülməsi əməliyyat-axtarış tədbirlərinin nəticələrinin cinayət işinin başlanmasında və istintaqında istifadə olunması da mühüm əhəmiyyət kəsb edir

Müqayisəli tədqiq üçün nünumələrin götürülməsi əməliyyat-axtarış tədbirlərinin xüsusi növlərindən biridir (Azərbaycan Respublikası «ƏAF haqqında» Qanunu, maddə 10, I hissə, 14-cü bənd). Təcrübədə əşya və predmetlərin götürülməsi üçün bu normaya istinad olunması hallarına çox təsadüfi hallarda rast gəlinir. Fikrimizcə, nəzarət qaydasında mal alınması əməliyyat-axtarış tədbirinin tətbiq olunması ilə yanaşı, bu tədbirdən istifadə olunması məqsədəuyğundur.

Hər bir vətəndaş (narkotik vasitə satan və ya alan və s.) istənilən vaxt onda olan narkotik vasitə, pul vəsaiti və digər predmetləri könüllü təhvil vermək hüququna malikdir. Könüllü təhvil verilən əşya və predmet istənilən əməliyyat-axtarış və istintaq hərəkətləri çərçivəsində sənədləşdirilə bilər. Tərtib oluna biləcək hər hansı bir sənədə hüquqi maneə yoxdur, məsələn, könüllü təhvil vermə barədə akt.

Axtarış və ya götürmə, şəxsi axtarış və götürmə kimi istintaq hərəkətləri (Azərbaycan Respublikası CPM, mad. 242-246) yalnız cinayət işi başlandıqdan sonra həyata keçirilir [1].

Azərbaycan Respublikasının CPM-in 46.2-ci maddəsində cinayət işinin başlanması üçün səbəb kimi törədilmiş və ya hazırlanan cinayət haqqında fiziki şəxs tərəfindən verilən ərizə, hüquqi şəxsin (vəzifəli şəxsin) və ya kütləvi informasiya vasitələrinin məlumatları, yaxud bu məlumatların təhqiqatçı, müstəntiq və ya prokuror tərəfindən bilavasitə aşkar edilməsi qeyd olunmuşdur [1].

Azərbaycan Respublikasının CPM-in 217.1-ci maddəsinə əsasən ibtidai istintaq və ya təhqiqat şəklində ibtidai araşdırma (hadisə yerinə baxış keçirilməsindən başqa bütün istintaq hərəkətləri daxil olmaqla) yalnız cinayət işinin başlanması haqqında qərar çıxarıldıqdan sonra aparılır [1].

Hazırki vəziyyətdə xüsusi maraq kəsb edən hallardan biri Azərbaycan Respublikası CPM-nin 208-ci maddəsinin məzmunudur. Belə ki, bu normada törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatların cinayət təqibi orqanı tərəfindən bilavasitə aşkar olunması göstərilmişdir [1].

Təcrübədə cinayətlərin əlamətlərinin əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə aşkar olunması bilavasitə aşkar olunma kimi qəbul olunur. Eyni zamanda, bu səbəb o zaman yaranır ki, əgər cinayət-axtarış aparatının, təhqiqat orqanının rəhbəri və ya müstəntiq cinayət işinin başlanması üçün məlumatın kifayət qədər olmasını daxili inamına əsasən qiymətləndirirlər. Əgər əlavə yoxlama keçirilməsinə zərurət yaranarsa, bu, cinayət-prosessual deyil, əməliyyat-axtarış fəaliyyəti çərçivəsində həyata keçirilir. Cinayət işinin başlanması üçün cinayət əlamətlərini özündə əks etdirən kifayət qədər faktiki məlumatların olması tələb olunur. Belə ki, əməliyyat-axtarış tədbirlərinin nəticələrinə əsasən cinayət işinin başlanmasına misal olaraq növbəti faktı göstərmək olar: cinayətkar qrupun üzvlərinin narkotik vasitəni satmaları haqqında əməliyyat müvəkkili əməliyyat məlumatı əldə etmişdir. Alınmış məlumata əsasən narkotik vasitənin haradan gətirilməsi və saxlanılması kanalını müəyyən etmək, həmçinin müqayisəli tədqiq üçün nümunələrin götürülməsi məqsədilə narkotik vasitənin nəzarət qaydasında alınması üçün qərar qəbul edildi. Bu tədbirin köməkliyi ilə narkotik vasitənin növü, qrupun bütün üzvləri və onların hamısının tutulması üçün şəraitin yaradılması kimi məsələlər həmçinin narkotik vasitənin şərti alıcı tərəfindən alınması zamanı cinayətkarların cinayət başında yaxalanması təmin olundu.

Qeyd edilən faktla bağlı nəzarət qaydasında mal alınması əməliyyat-axtarış tədbirinin keçirilməsi haqqında tərtib olunmuş raportda təhqiqat orqanı tərəfindən bilavasitə cinayətin əlamətlərinin aşkar olunması faktına dair qeydlər cinayət işinin başlanması üçün səbəb kimi çıxış edir. Bu halda nəzarət qaydasında narkotik vasitənin alınması tədbirinin keçirilməsi prosesində tərtib olunan (məqalənin əvvəlində qeyd edilən) sənədlər əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektinin qərarı ilə istintaq orqanına təqdim olunur.

Hal-hazırda Polis Akademiyasının «DİO-nun əməliyyat-axtarış fəaliyyəti» kafedrası tərəfindən qanunvericiliyə əsasən bu fəaliyyət sahəsində istifadə olunan əsas əməliyyat xidməti sənədlərin və cinayət prosesində istifadə olunan xidməti sənədlərin nümunələrinin hazırlanması istiqamətində işlər aparılır və yaxın vaxtlarda tədris prosesində istifadə olunması nəzərdə tutulmuşdur. Zənnimizcə, qeyd edilən dərs vəsaitinin tədris prosesində istifadə olunması cinayətkarlığa qarşı mübarizədə ön xətdə iştirak edən daxili işlər orqanlarının əməliyyat aparatlarının fəaliyyətinə öz müsbət təsirini götərəcək, habelə əməliyyat-axtarış tədbirlərinin nəticələrinin cinayət prosesində istifadə edilməsi sahəsində olan bəzi hüquqi boşluqların aradan qaldırılmasına xidmət edəcəkdir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi, Bakı, 2000;
2. Azərbaycan Respublikası «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunu. Bakı, 1999;
3. Azərbaycan Respublikası 28.06.2005-ci il tarixli «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunu;
4. Актуальные вопросы теории и практики ОРД. Академия МВД РФ. Москва, 2001.

5. Вагин О.А., Исиченко А.П. Шабанов Г.Х. Оперативно-розыскные мероприятия и использование их результатов. Москва, 2006.
6. Кармаев О.П. Использование результатов ОРД при расследовании уголовных дел о незаконном обороте наркотиков. Москва, 2005.
7. Комментарий к Федеральному закону «Об орде», Москва, 2002.
8. Оперативно-розыскная деятельность. Учебник (под ред. К.Н. Горянова и др.).Москва, 2001.

**Шахин Гусейнов**
*Академия Государственного Таможенного Комитета Азербайджанской Республики*
**Рауф Алиев**
*«Альянс» - Общественное Объединение Ветеранов Специальных Служб Азербайджана*

**Некоторые актуальные вопросы использования результатов оперативно-розыскных мероприятий при расследовании преступлений, связанных с наркотиками**

**Резюме**

В статье рассматриваются преступления, связанные с наркотиками. Автор рассматривает актуальные вопросы использования результатов оперативно-розыскных мероприятий при расследовании этих преступлений.

**Ключевые слова:** *оперативно-розыскная деятельность, оперативно-розыскное мероприятие, наркотики, преступление, расследование*

**Shahin Huseynov**
*Academy of the State Customs Committee of the Republic of Azerbaijan*
**Rauf Aliyev**
*"Alliance"- Public Association of Veterans of the Special Services of Azerbaijan*

**Some topical issues of using the results of operational-search measures in the investigation drug offenses**

**Summary**

The article deals with drug-related crimes. The author examines topical issues of using the results of operational-search measures in the investigation of these crimes.

**Key words:** *operational-search activity, operational-search action, drugs, crime, investigation*